# ƏDƏBİ MÜHİTDƏ TEYMUR ƏHMƏDOV YOLU

## *(Tədqiqatçı Şəfəq Nasirin ədəbi qeydlərində)*

Hər bir ədəbiyyat adamının taleyini sözə, sənətə bağlayan tədqiqatçının, yazıçının özünün yaratdığı mühit onun kimliyini daha çox, daha aydın, daha qabarıq göstərir.

Teymur Əhmədov ədəbiyyatşünas alim kimi öz ətrafında müxtəlif istiqamətlərə nüfuz edə bilən bir tədqiqat institutu yaradır. Onun yetirdiyi çoxlu sayda tədqiqatçılar ədəbi düşüncəmizin inkişafına böyük töhfələr verir. Eyni zamanda Teymur Əhmədov həm də aydın vətəndaşlıq mövqeyi olan fəal, çevik jurnalist fəaliyyəti ilə də mətbuatda xüsusi bir mərhələ yaradıb.

Tədqiqatçı Şəfəq Nasirin Teymur Əhmədov obrazına müraciəti təsadüfi deyil. Müəyyən mənada onun bir tədqiqatçı kimi formalaşmasında da Teymur Əhmədovun xidmətləri danılmazdır. Müəyyən əsərin, ya tədqiqat əsərinin, hər hansı qeydlərin yazıya alınması üçün vacib olan istinad mənbəyi var.

Şəfəq Nasir də "Mənəviyyat adamı" adlı qeydlərini yazarkən, ədəbi mühit üçün maraqlı olan bir mənbəyə istinad edir. Bu tədqiqatçı-publisist Qalib Qadirin "Teymur Əhmədov" adlı portiret qeydləridir. Bu portret qeydləri görkəmli alimin dövrümüzün çox müdrik simalarından biri kimi tanınan Teymur Əhmədovun 75 illik yubileyi münasibətilə nəşr olunub. Şəfəq Nasir elə həmin dövrdə, yəni 15 il bundan əvvəl Teymur Əhmədov mənəvi mühitini fakt göstəricisi ilə təqdim edən "Biblioqrafik məlumat toplusu"nu da diqqətindən qaçırmır.

Şəfəq Nasir birinci növbədə yazıçıdır. Ona görə də hər hansı ədəbi portreti qələmə alarkən öz sənətinə sadiq qalaraq yazıçı təsvirlərindən də məharətlə istifadə edir. Beləliklə, onun ədəbiyyatşünaslıq mövqeyində yazdığı elmi aspektdəki məqalələrində də obrazları çox canlı düşüncənin asanlıqla qəbul edəcəyi cazibədə görürük. Teymur Əhmədovla tanışlığını, gənc tədqiqatçıya qayğılı münasibətini yazıçı şəriştəsi ilə sözə gətirir. Qarşılıqlı münasibətlər fonunda böyük alimin əsl insan obrazını, onun simasında humanizmin aparıcı gücünü göstərə bilir.

Teymur Əhmədovun çox dəyərli yaradıcılığı konkret faktlarla şərh olunur: "Bu baxımdan yaradıcı zəhmətinin, ziyalı mədəniyyətinin bəhrəsi olan "Nizami adına Ədəbiyyat İnstitutu" möhtəşəm abidəsi, "Mirzə İbrahimov", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri" əsərləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığını tədqiq edən monoqrafiyaları, yüzlərlə elmi, ədəbi-tənqidi, publisist yazıları ictimai fikir tariximizdə özünün əhəmiyyəti, aktuallığı ilə milli-mənəvi dəyərlərimiz sırasındadır". Müəllif görkəmli ədibin zəngin yaradıcılıq yolu olan alimin əhatə dairəsindən müxtəsər mülahizələrlə keçir. Qalib Qadirin oxuculara təqdim olunan kitabı haqqında dəyərli mülahizələr bildirir: "İnsanın ömrünü mənalı, həm də dəyərli edən onun böyük zəhməti, əməyidir. "Teymur Əhmədov"un portretini bir ədəbi zərgərliklə işıqlandıran Qalib Qadir onun ömür salnaməsini vərəqləməklə bu müdrik insanın mənəvi varidatını üzə çıxarıb. Teymur müəllim gözlərimizin qarşısında elm, sənət aləmində ilk qədəmlərini atır. Cavan, sağlam bir qələmə aylar, illər içrə inkişaf edir, barlı-bəhərli, köklü-köməçli bir ağaca çevrilir; şirəli rişələrlə torpağına, millətinə bağlı qocaman bir ağaca..." Bənzətmələr, təsvirlərin canlılığı bizim bu gün tanıdığımız böyük Teymur Əhmədovun ilk gəncliyindən üzü bəri gələn yoluna işıq salır. Onun təbiətinin humanizmlə süslənən keyfiyyətini öz kökü üstündə görə bilirik. Bizim tanıdığımız böyük alimin uşaqlıq, gənclik çağlarındakı iztirabları sanki Azərbaycan xalqının tarixi taleyi haqqında məlumat verir. Şəfəq xanımın qeydləri Azərbaycan xalqının başına gələn münasibətləri yaşayan şahid kimi Teymur müəllimi görmək imkanı yaradır: "Onun uşaqlıq, gənclik illərinin atasızlıq qəhrini, ağrı-acısını canımda-qanımda yaşayaraq doluxsundum. Güllü ananın, ata əvəzi, ər qeyrətli qardaşı İbrahimin cavanca pöhrəyə qayğısından, həyanından duyğulandım. Dədəbabalarının yurduna qanadlanıb, qədim elimizin, günümüzün ruhu sızıldayan İrəvan mühitində dolaşdım. İlk qələm təcrübələrini işıq üzünə çıxaran "Sovet Ermənistanı" qəzetinin mətbəxinə düşdüm. Və onunla birgə Bakı mühitinə qayıtdım". Təkcə elə bu müxtəsər qeydlərin təlqin elədiyi informasiya müəllif və onun tədqiq etdiyi ədəbi simanın hansı mənəvi qaynaqlarda birləşdiyini də diqqətə çatdırır. Sonra müəllif Teymur müəllimin rəhbərlik etdiyi, çalışdığı, yazılarını dərc etdirdiyi mətbuat orqanlarının aparıcı mövzularına diqqəti yönəldir. Biz görürük ki, Teymur Əhmədov hansı mətbuat orqanının fəaliyyətində görünürsə, orada xalqımızın milli dərdləri, problemləri daha qabarıq işıqlandırılır.



Müəllif yazısının sonunda inamla bildirir ki, Teymur Əhmədovun ədəbi fəaliyyəti davam edir və demək onun yaradıcı portireti zənginləşməkdə davam edəcəkdir.

Şəfəq Nasir Teymur Əhmədov haqqında "Könüllərə şəfəq payı" kitabında ikinci yazısını da təqdim edir: "Ədəbiyyatşünas - alimin yeni kitabları". Bu məqalədə müəllif və bir il əvvəl yazdığı qeydlərdəki düşüncələri təkrar etmir. Alimin yaradıcılığına daha geniş əhatədə yanaşmaqla onun əsərlərinin mahiyyəti əsasında ədəbi nüfuzunu xarakterizə edir.

Müəllif görkəmli alimin nəşr olunmuş bir çox kitablarının adlarını çəkir. Xüsusilə, görkəmli yazıçı-dramaturq, pedaqoq, publisist, böyük ictimai-siyasi xadim N.Nərimanovun xalqımızın yaddaşındakı abidəsinə uyğun tədqiqatlarının xatırlanması göstərir ki, Teymur Əhmədovun elmi fəaliyyətində Azərbaycan xalqının tarixi taleyi ilə bağlı simaların tədqiqinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etməsi göstərir ki, Şəfəq Nasir ustadının Nərimanova münasibətinin mahiyyətini yaxşı bilir.

Şəfəq Nasir professor Teymur Əhmədovun yeni çap olunan "Xalq yazıçısı görkəmli ictimai xadim Mirzə İbrahimov" ("Nurlan") və "Səməd Vurğun" ("Nurlar") kitabları haqqında xəbər verir. Və sonra bu kitabların əsas fikir istiqamətlərini şərh edir, yeri gəldikcə sərrast, aydın düşüncələrlə münasibət bildirməkdən çəkinmir. Şəfəq Nasirin məqaləsində Mirzə İbrahimov və Əzir Şərif münasibətlərinə diqqət yetirilməsi göstərir ki, Azərbaycan xalqının yetirdiyi iki böyük simanın yaratdığı zəngin sərvət milli düşüncəmizin xəzinəsində ölməz səhifələrdir. Mirzə İbrahimovun Cənubi Azərbaycanla bağlı məktubları böyük ədibin irsində xüsusi yer tutur.

Son günlər ictimai siyasi həyatımızda baş verən hadisələr göstərir ki, biz cənub mövzusuna münasibətdə həmişə diqqətli və məsuliyyətli yanaşmalıyıq. Zəfər paradındakı əzəməti və bu əzəmətin doğurduğu əks reaksiyaları necə yaddan çıxarmaq olar. Ona görə də Şəfəq Nasirin qeydlərinin Cənubi Azərbaycanla bağlı məqamlarını bir daha oxucuların diqqətinə yetirməyi təkcə ədəbi borc yox, həm də milli vətəndaşlıq mövqeyindən əsaslı sanıram: "M.İbrahimovun Cənubi Azərbaycana göndərdiyi məktublarında Cənub Ədəbiyyatının bir çox ədib və şairlərinin, tərəqqipərvər ziyalılarının ədəbi irsinə, ictimai fəaliyyətlərinə qayğısı, həssaslığı, vətənpərvərlik duyğuları ifadə olunur. Eləcə də Cənubi Azərbaycandan M.İbrahimova gələn məktublarda Cənub ədəbiyyatına, onun ədəbi birliklərinə göstərdiyi qayğısı, köməkliyi yazıçının ayrı-ayrı əsərlərinə bəslənilən dərin məhəbbət, böyük vurğunluqla, minnətdarlıq hissi ilə xatırlanır. Bu məktublar dostluq, qardaşlıq münasibətlərini ifadə etməklə yanaşı, həm də o taylı-bu taylı yazıçıların, mütərəqqi fikirli ziyalıların ədəbi-mədəni əlaqələrinin, onlarla görkəmli sənətkarın yaradıcı fəaliyyətlərinə qayğının çox səmimi, munis ifadəsidir. Qeyd etmək lazımdır ki, M.İbrahimovun ədəbi epistolyar irsi ilk dəfə olaraq məhz T.Əhmədovun araşdırmaları sayəsində üzə çıxarılmışdır". "Üzə çıxarılmışdır" ifadəsi əslində Teymur Əhmədovun böyük fədakarlıqla göstərdiyi xidmətlərin mahiyyətinin təsdiqidir. Çox ola bilərdi ki, Mirzə İbrahimovun epistolyar yaradıcılığı adi, sıradan məktublar kimi arxiv yatırı olardı. Ancaq xalqını sevən, onun milli irsinə, milli hissləri ilə bağlı olan tədqiqatçı bu dəyərli sərvətin nə demək olduğunu, onun qiymətini bilər. Şəfəq Nasirin yazıdan nümunə üçün gətirdiyimiz qeydləri göstərir ki, Mirzə İbrahimovun Cənubla bağlı ədəbi əlaqələr fonunda yazdıqları Teymur Əhmədovun tədqiqatlarında xüsusi əhəmiyyət kəsb edir. Teymur Əhmədov yaxşı bilir ki, Mirzənin məktublarındakı vacib məqamlar xalqımızın tarixi taleyi üçün necə böyük əhəmiyyət kəsb edir. Teymur Əhmədovun yaradıcılığında möhtəşəm obrazların yer tutması əslində onun özünün xalqın ölməz dəyərlərinə münasibətinin göstəricisidir. Və Şəfəq Nasirin də "Səməd Vurğun" kitabına xüsusi diqqəti elə buna görədir. O çox yığcam şəkildə amma əsaslı şəkildə tərtibçi müəllifin həm zəhmətini qiymətləndirir, həm də Səməd Vurğunun milli düşüncədəki yerini göstərir: "Tərtibçi müəllifin "Səməd Vurğun"ktabında Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli xalq şairi S.Vurğunun böyük sənət yoluna, şairi doğuran ədəbi mühitə, onun yaradıcılığına qolqanad verən Azərbaycan təbiətinə, elmi-ədəbi, ictimai fəaliyyət dövrünün tarixi hadisələri axarında yeniləşən, müdrikləşən yaradıcılığına yeni baxışla nəzər salınmışdır. Tədqiqatçı onun bütövlükdə sənət dünyasını, poetik duyğularını, yeni və fərqli aspekdən təqdim edir. S.Vurğunun əsərlərindəki mənəvi-fəlsəfi gözəlliyə dəyər verən rus və Yaxın Şərq ədəbiyyatının görkəmli nümayəndələrinin nəzəri-estetik baxışlarına işıq salır. Tərtib-kitabda şairin hikmətli sözləri, aforizimlərinin yer alması yeni araşdırma işi olmaqla sənətkarın ədəbi irsinin necə böyük qüdrətə, mənəvi-əxlaqi ideyaya malik olmasının meyarıdır". Məlumdur ki, kosmopolit düşüncə adamları Azərbaycan xalqının tarixi-mənəvi dəyərlərinə daha çox hücum edir.

Teymur Əhmədov albom kitabların elmi nəşri sahəsində məktəb yaratmış alimdir. Onun "Abdulla Şaiq", "Xəlil Rza ulutürk kimi nəfis tərtibdə kitabları görkəmli sənətkarlarımızın həyat yollarını fotolarla əks etdirməkdən başqa elmi siqlətləri ilə də dəyərlidir. Görkəmli alim hazırladığı kitabları elmi-bədii yaradıcıllıqlarından örnəklərlə də zənginləşdirir. Teymur Əhmədovun bu tipli kitabları Azərbaycan ədəbiyyatı və mədəniyyəti üçün əvəzsiz töhfələrdir.

Şəfəq Nasir ustadının mühüm yaradıcılıq sahəsi kimi albom kitablarını tədqiq etməklə, geniş oxucu auditoriyasına təqdim etməklə kifayətlənmir. Yeri gəldikcə onun yaradıcılığının digər sahələrinə, xüsusilə, jurnalistik fəaliyyətinə də konseptual baxış sərgiləyir.

*(Davamı 16-cı səhifədə)*

# ƏDƏBİ MÜHİTDƏ TEYMUR ƏHMƏDOV YOLU

## *(Tədqiqatçı Şəfəq Nasirin ədəbi qeydlərində)*

*(Əvvəli 13-cü səhifədə)*

Bu il Şəfəq Nasirin Teymur Əhmədovun jurnalistik fəaliyyətinə həsr olunmuş çox dəyərli bir monoqrafiyası da işıq üzü gördü. Monoqrafiya "Teymur Əhmədovun jurnalistlik fəaliyyətinə bir nəzər" adlanır. Ancaq müəllif tədqiqat işində daha geniş mövzunu əhatə etməyə çalışmışdır. "XX-XXI əsrlərin qovşağında milli mətbuatın çətin və şərəfli mübarizəsi" ideyasını elmi düşüncə müstəvisinə gətirir. Böyük alimin jurnalistlik fəaliyyətini məhz bu ideyanın işığında tədqiqata cəlb edir. Müəllifin öz ustadına münasibəti onun ziyalı əməyinə münasibəti ilə üst-üstə düşür. Şəfəq Nasir tədqiqatın lap girişindəcə bir çox tarixi simaların, onların yaratdığı mətbuat örnəklərinin adlarını çəkməklə Teymur Əhmədovun öz sələflərinin yolunu davam etdirən fədakar xələf, sədaqətli varis olduğunu da bildirir: "Teymur Əhmədovun mətbuat fəaliyyətini nəzərdən keçirəndə




görürük ki, İsmayıl bəy Qaspiralı "Tərcüman"ı, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"i, Əli bəy Hüseynzadə "Füyuzat"ı, Əhməd bəy Ağayev "Həyat"ı necə böyük yanğı, məhəbbətlə yaratmışdısa, Teymur Əhmədov da nəşrinə rəvac verdiyi qəzet və jurnalları ("Ata yurdu" (1989), "Vətən səsi" (1990-1991), "Elturan" (Milli məsələlər – 1992), "Vətən həsrəti", "Hikmət" (1992-1993), "Yeni fikir" (1994-1995), "Füyuzat" (2007-ci ildən indiyədək) həmin yanğı, sevgi ilə işıq üzünə çıxarmışdır". Monoqrafiyada müəllif düşüncəsini izlədikcə, Teymur Əhmədovun bir əsri haqlamaqda olan yaşının az qala 75 ilini mətbuata sərf etməsini, özü də necə sərf etməsini dərk etmək bizi sözün həqiqi mənasında heyrət qarşısında qoyur. Və bir daha inanırıq ki, Teymur Əhmədov sözün həqiqi mənasında əsl mətbuat fədaisidir. O, mətbuatın canlı salnaməsidir. Kimsəyə sirr deyil ki, Azərbaycan öz istiqlalını bərpa etməklə yeni mübarizə mərhələsinə daxil oldu. Teymur Əhmədov milli mətbuatımızda milli oyanışın təkanverici güc mərkəzlərindən biri kimi mübarizənin ön cərgəsində idi. Şəfəq Nasir öz tədqiqatını çox səmimi, ustadının obrazını reallıqla əks etdirən cümlələrlə bitirir: "Başqa bir tərəfdən, o, təcrübəli, peşəkar, səriştəli jurnalist olaraq, milli oyanış dövrü mətbuatımızın ən mübariz, səviyyəli nümunələrini yaratmışdır. İkinci dövr həm də mətbuat tariximizin ənənələrinə söykənən və onu yeni dəyərlərlə inkişafa aparan cəsarətli, əqidəli, dəyanətli, mətanətli, əzmli redaktor kimi Teymur Əhmədovu milli mətbuat tarixində imzaları olan görkəmli redaktorların cərgəsində olmasına haqq vermişdir. Burdan belə bir nəticə hasil olur ki, Teymur Əhmədovun mətbuat yardıcılığı və özünün yaratdığı milli oyanış dövrü qəzet və jurnallarında millətimizin tarixi taleyi ilə bağlı əsərləri tədqiqat mövzusu olaraq araşdırılmalıdır. Bu da öz tədqiqatçısını gözləyir". Şəfəq Nasirin bu dəyərli tədqiqatı - "Teymur Əhmədovun jurnalistik fəaliyyətinə bir nəzər" kitabı milli mətbuatımızın canlı korifeylərindən biri haqqında çox dəyərli bir mənbədir. Gələcək tədqiqatçılar üçün əvəzolunmaz istinaddır.

Teymur Əhmədovun ədəbi-elmi fəaliyyətinə həsr olunmuş məqalələri Şəfəq Nasirin yaradıcılıq salnaməsinin ən dəyərli səhifələridir.

***Əli Rza XƏLƏFLİ***
***2020***